# A Ş I Q P Ə R İ QOŞMALAR

Pdfləşdirən: kitablar sayti

http://www.kitablar.com

Mürşidn-kamildən dərsimi aldım, Can kötürüb bu meydana gəlmişəm. Mürği-Səməndərin aşinasıyam, Od tutuban yana-yana gəlmişəm. Müxtəsər, nə deyim, naşısan, naşı! Tutubdur yaxanı eşqin ataşı, Bu tərifqər zənənə nə yaraşı, Həqq bilir ki, mən mərdana gəlmişəm. Pünhanıda bir azarım var mənim, Gözlər yolda, intizarım var mənim, O kəlməndən xəridarım var mənim, Sən sərrafsan, mən də kana kəlmişəm. Zənbur olar şanda belə məkanda, Çox ariflər mandə gənci-pünhanda, Bülbül - abadanda, bayqu - viranda, Əndəlibəm, gülüstana kəlmişəm. Pərizadə əl götürməz canından, Dərsin alıb sahibkamal yanından, Külli-işin mərifətin kanından, Bəzm içində mən fəğana kəlmişəm.*/ /*Eşitmişdik, qulluğuna yetişdik, Gördük ki, düşmüsən dildən-dilə sən. Unutmayıb musəlmanlıq şərtini, Matəm tutub bir insafa gələsən. Bu işdə Qədirin varıdır rayı, Yetən kəslər ona delir sevdayı. Aralığa düşüb məhərrəm ayı, Layiq deyil onda deyib-guləsən. Yaxşı yetər imamı fəryadına, Belə işin ləzzəti nə, dadı nə? Adam bildik biz də gəldik adına, Adamlığı qanmayıbsan hələ sən. Ey Pəri, təcil et sualında sən, Nöqsan yetiribsən kəmalında sən, İmdi zurna çalmaq xəyalındasan, Onu gərək axirətdə çalasan.*/ /*Şayistədir, ey murşidi-kamilim, Dostlar arasında etibar ola. Şair olan ustadından dərs ala, Ziddu cinsü rədifdə pərgar ola, Sən ki bizə namə yazdın ibtida, Canı dost yolunda eylədim fəda. Övsafi-aləmdə yektadır, yekta, Mələk hicranında bərqərar ola. Cəvabi-xəttindən olmuşam xoşhal, Ərz eləyim qulluğuna vəsfi-hal, Şən ilə şövkətin olsun bizaval, Gərək xidmətində

xidmətkar ola. Mayiləm hüsnunun xoş irənginə, Yetə bilmən təcnisimin dənginə. Sallam səni məhşərin cəhənginə, Arif bu yerlərdən xəbərdar ola. Pəri idim eşq içində aşikar, Aralıqda yaxşı olur səbəbkar, Bu cəng meydanında eylərəm şikar, Əgər Məhəmməd tək səd həzar ola.*/ /*Katiblərin şahı dəftər içində Qələm ilə nazik əllər oynaşır. Fitnəli, fellisən, nazü qəmzəli, Dəhanında şirin dillər oynaşır. Eşqinin əlindən gedərəm bada, Dərdim olur gündən-günə ziyada, Şiveyi-rəftarın düşəndə yada Bağrımın başında millər oynaşır. Dad elərəm, haray naşı əlindən, Yandı cigər eşq ataşı əlindən, Mən nə deyim gözüm yaşı əlindən, Üzüşür sonalar, göllər oynaşır. Adam var dolanır məkrin içində, Adam var dolanır zikrin içində, Sənin kamalında, fikrin içində Əcaib-qəraib hallar oynaşır. Pəriyəm, xəlq ara olmuşam bacı, Kimsənin kimsəyə yox ehtiyacı, Bəlxü Buxaranın, Hindin xəracı Zənəxdanda siyəh xallar oynaşır.*/ /*Nə yatıbsan ləhaf bəstər içində, Bimarmısan, nədir bəs halın sənin? Eşqin mərəzinin mən təbibiyəm Bəyan eylə mənə əhvalın sənin. İsmi-şərifiniz dada yetişsin, Mətləb alıb hər murada yetişsin. Xaliq özü bir imdada yetişsin. Hifzində saxlasın zavalın sənin. Bar ilahım gülzarına qıymasın, Xəstə olan bimarına qıymasın, Şirin-şirin göftarına qıymasın, Bağışlasın qaşi-hilalın sənin. Bir məsəldir: Bağban olan bar çəkər, Əndəlibin həm meyli gülzar çəkər, Allahına bəndə ahü zar çəkər, Qəm çəkmə, kamildir kamalın sənin. Mən Pəriyəm, eşqə zaram neyləyim, Dərdi-dildən xəbərdaram, neyləyim, Burdan ora intizaram, neyləyim, Şəfalansın nuri-vüsalın sənin.*/ /*Çanaqçı mülkündən səfər elədik, Mənə qənim oldu yollar, ağlaram. Şəcər gəldi, urdu, şikar eylədi, Tökər didələrim sellər, ağlaram. Nagahandan böylə düşdüm dərdə mən, Necə çəkim eşq üzünə pərdə mən? Gözü yaşlı gəldim Tağaverdə mən, Pərişan olubdur tellər, ağlaram. Bir şahandaz şahbarım gedibdir, Kəsilibdir ixtiyarım, gedibdir. Köksü dağlı bir tavarım gedibdir, Quruyub lal olub dillər, ağlaram. Bir Pəri dil aramında qan ağlar, Çəkilib sinəmə dügünlü dağlar, Ölübdür bülbülüm, lal olub bağlar, Saralıb-sovulub güllər, ağlaram.*/